# HƏYATI

Nadir İslam oğlu İsmayılov 1956-cı il fevral ayının 5-də Beyləqan rayonunun Əmirzeyidli kəndində anadan olmuşdur. 1973-cü ildə Şahsevən kənd 1 saylı orta məktəbi bitirmişdir. 1974-cü ildə BDU-nin kitabxanaçılıq (indiki BDU-nun İnformasiya və sənəd menecmenti) fakültəsinə daxil olmuş, əla qiymətlərlə oxuduğuna görə C.Cabbarlı adına təqaüdə layiq görülmüş, 1979-cu ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1979-cu il sentyabr ayının 5-dən dekabr ayının 30-dək M.F. Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanasının (indiki Milli Kitabxana) Elmi-metodiki şöbəsində böyük kitabxanaçı vəzifəsində çalışmışdır.

1979-1982-ci illərdə BDU-nun Biblioqrafiya kafedrasının (indiki Sənəd menecmenti kafedrası) əyani aspirantı olmuşdur. 1982-ci ildən həmin kafedrada müəllim, 1988-ci ildən baş müəllim, 1992-ci ildən dosent kimi fəaliyyət göstərmiş, 1994-2003-cü illərdə fakültədə dekan müavini olmuşdur. 2007-ci ildən kafedra müdiri vəzifəsinə təyin edilmişdir. Fakültədə Azərbaycanda təbabətin biblioqrafiyası, biblioqrafiyaşünaslıq, biblioqrafiyaşünaslığın tədrisi metodikası, ixtisasa giriş, arxiv işinin əsasları və s. fənləri tədris edir. 1987-ci ildə Moskva Dövlət Mədənniyyət və İncəsənət Universitetində “Təbabət üzrə məhəlli kitabxana-biblioqrafiya ehtiyatlarının inkişafı, müasir vəziyyəti və təkmilləşdirilməsi yolları (Azərbaycan materialları əsasında)” mövzusunda dissertasiya işini Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, professor Zöhrab Əliyevin rəhbərliyi altında müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsini almışdır. 150-dən çox məqalənin, 3 dərslik və dərs vəsaitinin, 34 monoqrafiyanın, 12 kitabın müəllifidir. Bunlardan “Azərbaycan biblioqrafiyasının biblioq-rafiyası” (2003), “Xəzər dənizi və neft” (2003), “Kitabxanada biblioqrafik tərtibatın metodikası” (2004), “Heydər Əliyev və Azərbaycan elmi” (2010), “Kitabxanada ölkəşünaslıq üzrə biblioqrafik fəaliyyətin təşkili” (2004), "Kitabxanalarda biblioqrafik işin təşkili və metodikası" (2018), "Azərbaycanda kitabxanaçılıq-biblioqrafiya sahəsində sənəd axınının təşəkkülü, inkişafı və müasir vəziyyəti" (2021), "Rəqəmsal bilik və tədqiqat bacarıqları" (2022), "Sənədşünaslıq" (2025) adlı vəsaitlər xüsusilə əhəmiyyətlidir. 2013-cü ildə Almaniyanın “Lambert” akademik nəşriyyatında “Azərbaycanın kitabxana-biblioqrafiya və informasiya resursları: inkişaf mərhələləri, vəziyyəti və təkmilləşdirilməsi yolları” adlı monoqrafiyası rus dilində çap olunmuşdur. Son 5 ildə onun 50 məqaləsi beynəlxalq xülasələndirmə bazasında indekslənən jurnallarda çap olunmuşdur.Hazırda H-indeksi 22-dir. Nadir İsmayılov 2015-ci ildə Azərbaycan Kitabxana Ensiklopediyasını hazırlayan işçi qrupunun üzvü olmuşdur. Bir sıra respublika və beynəlxalq konfranslarda iştirak etmişdir. Elmi məsləhətçiliyi ilə 4 fəlsəfə doktoru hazırlanmış 3 doktorantın dissertasiya işi müzakirəyə təqdim edilmişdir. 4 doktorantın rəsmi opponenti olmuşdur.

Nadir İsmayılov Azərbaycan Respublikası Təhsil Nazirliyinin “Qabaqcıl Təhsil İşçisi” döş nişanı ilə, Fəxri fərmanla, Bakı Dövlət Universitetinin Fəxri fərmanı ilə, 2019-cu ildə “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019) Azərbaycan Respublikasının yubiley medalı” ilə təltif olunmuşdur. 2014-cü ildə BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü seçilmişdir. 2023-cü ildə Bakı Dövlət Universitetində əməkdaşlar arasında 27 Mart – Elm Gününə həsr olunmuş “İlin alimi” müsabiqəsinin nəticələrinə əsasən “Humanitar və ictimai elmlər” nominasiyası üzrə BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin Sənəd menecmenti kafedrasının müdiri, dosent Nadir İsmayılov I yerə layiq görülmüşdür.

2021-ci ildə Milli Kitabxana tərəfindən dəyərli biblioqrafiyaşünas alimin həyat və fəaliyyətinə həsr olunmuş “Biblioqrafiyaşünas alim – Nadir İsmayılov” adlı virtual sərgi hazırlanmşdır.